# Hər kitab bir dünyadır

## Cabbarlının pyesləri Türkiyədə




**Türkiyənin nüfuzlu ədəbi qurumu olan Türk Ədəbiyyatı Vəqfi Azərbaycan Yazıçılar Birliyi ilə ədəbi əməkdaşlıq müqaviləsi çərçivəsində daha bir mühüm ədəbiyyat layihəsini həyata keçirib.**

Azərbaycan ədəbiyyatında və teatr sahəsində xüsusi yeri olan, unudulmaz dramaturq C.Cabbarlının anadan olmasının 125-ci ildönümü münasibətilə yazıçının "Seçilmiş pyeslər" kitabı qardaş ölkədə ədəbiyyatsevərlərə təqdim olunub.

Türk Ədəbiyyatı Vəqfının rəhbəri, şair Sərhat Kabaklı türk mətbuatına açıqlamasında belə bir kitabın nəşrinin son dərəcə vacib olduğunu vurğulayıb: "Cəfər Cabbarlı təkcə Azərbaycan ədəbiyyatının deyil, bütün türk dünyasının ortaq mədəni irsinin ən mühüm nümayəndələrindən biri hesab olunur. Qələmə aldığı şeirləri, hekayələri, xüsusən də səhnə əsərləri ilə geniş oxucu kütləsi qazanan dramaturqun yaradıcılığında əsas yeri cəmiyyətin problemlərinə güzgü tutan pyesləri təşkil edir. Onun əsərlərini oxuyanda və ümumtürk mədəniyyəti üçün gördüyü böyük işləri incələyəndə türk oxucusuna belə bir ərməğan etmək qərarı verdik. Hesab edirəm ki, çağdaş türk gəncliyi qardaş xalqımızın nələrdən keçib zirvələrə necə ucaldığını həm də Cabbarlının yaradıcılığından öyrənəcək. Azərbaycan Yazıçılar Birliyi və əziz ustadımız, yaşayan Dədə Qorqudumuz Anarın belə layihələrimizə dəstək olması, xeyir-dua verməsi bizlərdən ötrü xəzinədir".

## Yapon nəsrinin "Qar dənəsi"




**Yapon ədəbiyyatının klassiki Rünoske Akutaqavanın (1892–1927) hekyələr toplusu belə adlanır.**

Yapon qısa hekayəsinin atası hesab olunan Akutaqava yaradıcılığında həm klassik, həm də müasir elementləri birləşdirərək yapon ədəbiyyatına yeni nəfəs gətirmişdir. "Raşomon" və "Meşədə" kimi hekayələri, xüsusilə Akira Kurosavanın "Raşomon" filminə təsir edərək bütün dünyada şöhrət qazanıb.

35 yaşında yüksək dozada yuxu dərmanı içərək intihar edən Akutqavanın qısa, lakin zəngin həyatı onun yapon ədəbiyyatında əbədi yerini təmin edib. Onun adı ilə adlandırılan Akutqava mükafatı, müasir Yapon yazıçıları üçün ən prestijli ədəbi mükafatdır.

...Qar dənəsi adlı köpək xain hərəkəti üzündən dönüb his kimi qara olur. Yeni rənginə nifrət edən və xətasına görə möhkəm peşman olan bu it yenidən ağ rəngli olmağa can atır. Təhlükələrə qarşı durur və insanları ölümdən qurtarır.

Tərbiyəvi təsir məramı ilə yazılan bu kimi hekayələr insan ruhunun sonsuzluğu və psixologiyanın sirləri barədədir. Müəllifin qısa ömründə 150 novellası, essesi, onlarla miniatürü, ssenarisi, şeirləri çıxıb. Onun mövzularının əksəriyyəti qədim xronikalardan, orta əsrlərə aid lətifələrindən, feodal eposlardan götürülüb. özünün parlaq istedadı və yumor hissi ilə ölməz əsərlərin müəllifinə çevrilib.

## Oğuzlu müəllifin "Sülh kitabı"

**Elza Rəşad Gülməmmədovanın bu toplusu sülhün sənət prizmasından tədqiqi kimi maraq kəsb edir.**

Oğuz rayonunun sakini və indiyədək 6




kitab müəllifi olan Elza xanım bu əsərində sülhlə bağlı sonsuz insan arzusunu bənzərsiz və güclü perspektivdə qələmə alıb. Kitabda sxolastik estetikadan üstündür, müxtəlif düşüncə tellərini birləşdirmək yolu ilə sülh fəlsəfəsinin özəyi araşdırılır. Kitab qeyri-zorakılıq və mərhəməti vurğulayan qədim müdriklik ənənələrindən (Buddizm və Caynizm) dialoq, diplomatiya və münaqişələrin həllini dəstəkləyən müasir sülhyaratma hərəkatlarına qədər zəngin ideyalar qobeleni təsiri bağışlayır.

İllər uzunu kitabxana müdiri işlədiyi üçün geniş mütaliə sahibi olan Elza xanımın bədii ifadə vasitələri bu dərin anlayışların rahat qavranılmasını təmin edir. Müəllif duyğuları təbii emosiyalar oyadır, perspektivlərə qapı açır və oxucunu bütün bəşəriyyətin bir-birinə bağlılığı haqqında düşüncələrə köklәyir.

"Sülh kitabı"na ön söz yazanlardan biri amerikalı ədəbi məsləhətçi Staci Modisette, digəri isə Azərbycan İqtisad Universitetinin müəllimi, yüksəık texnologoyalar üzrə ekspert Əflatun Məmmədovdur.

**XQ**